*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**


# ƏSGƏR

№ 06 (522)

15 mart 2018-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ, SİLAHLI QÜVVƏLƏRİN ALİ BAŞ KOMANDANI CƏNAB İLHAM ƏLİYEVƏ DAXİLİ İŞLƏR NAZİRLİYİNİN DAXİLİ QOŞUNLARI GÜNÜNÜN 26-cı İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİM İŞTİRAKÇILARININ MÜRACİƏTİ

**Möhtərəm Prezident!**
**Cənab Ali Baş Komandan!**

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunları gününün 26-cı ildönümünə həsr olunmuş təntənəli mərasimin iştirakçıları Sizi dərin hörmət və ehtiramla salamlayır, ən xoş, səmimi arzularını bildirir!

Respublikamız dövlət müstəqilliyini bərpa etdikdən və Milli Liderimiz Heydər Əliyevin 1993-cü ildə Ali hakimiyyətə qayıdışından sonra ölkə həyatının bütün sahələrində, o cümlədən ordu quruculuğunda aparılan islahatlar Daxili Qoşunların da müasir beynəlxalq standartlar səviyyəsində formalaşması üçün möhkəm təməl yaratdı. Ulu Öndərin imzaladığı tarixi fərman və sərəncamlar döyüş hazırlığının və hərbi intizamın yüksəlməsi, maddi-texniki bazanın möhkəmlənməsi, hərbçilərin sosial təminatının yaxşılaşması ilə nəticələndi, qoşunların idarə edilməsində keyfiyyətcə yeni mərhələnin əsasını qoydu.

Bu siyasəti uğurla davam etdirərək Daxili Qoşunların inkişafı üçün qəbul etdiyiniz qərarlar, göstərdiyiniz diqqət və qayğı şəxsi heyət tərəfindən həmişə dərin minnətdarlıqla və ruh yüksəkliyi ilə qarşılanır.



Daxili Qoşunların müxtəlif tədbirlərində iştirakınız, eləcə də xidməti- döyüş fəaliyyətimizə verdiyiniz yüksək qiymət, haqqımızda söylədiyiniz dəyərli fikirlər, tövsiyələr hər zaman fəaliyyət proqramı kimi qəbul olunmaqla şəxsi heyəti daha böyük uğurlara ruhlandırır.

Respublikamızda daxili sabitliyin qorunub saxlanılmasında və möhkəmləndirilməsində xüsusilə fərqləndiklərinə görə bir qrup hərbi qulluqçunu yüksək mükafatlara layiq görməniz bizim üçün böyük mənəvi stimul olmaqla bərabər, Vətən, xalq, dövlət və dövlətçiliyimiz naminə xidmət əzmimizi daha da artırır.

Sözsüz ki, bu ali diqqət və qayğı hərbi qulluqçulardan üzərlərinə düşən vəzifələri daha böyük məsuliyyətlə yerinə yetirməyi, sabitliyin, təhlükəsizliyin, əmin-amanlığın, insan hüquq və azadlıqlarının nümunəvi təminini tələb edir.

Sizin rəhbərliyiniz altında xalqa, müstəqil ölkəmizə, dövlətçiliyimizə xidmət etməkdən şərəf duyan, ciddi nizam-intizama, sağlam mənəvi-psixoloji mühitə malik, döyüş hazırlığını, peşəkarlığını gündən-günə yüksəldən Daxili Qoşunların şəxsi heyəti qanunla müəyyən edilmiş bütün vəzifələri, qarşıya qoyulmuş döyüş tapşırıqlarını yerinə yetirməyə tam hazırdır.

**Möhtərəm Prezident!**
**Cənab Ali Baş Komandan!**

Sizi əmin edirik ki, Hərbi anda, xalqına və dövlətinə, Ulu Öndər Heydər Əliyevin ideyalarına sadiq olan Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəxsi heyəti dövlətçiliyimizin və müstəqilliyimizin, hər bir vətəndaşın hüquq və azadlıqlarının keşiyində bundan sonra da ayıq-sayıq dayanacaq, Ali Baş Komandanın bütün əmr və göstərişlərini ən yüksək səviyyədə yerinə yetirəcək, Azərbaycan Respublikasına sədaqətlə xidmət edəcəkdir!

***Müraciət "12" mart 2018-ci il tarixdə Daxili Qoşunların Baş İdarəsində keçirilən təntənəli mərasimdə qəbul olunmuşdur.***



## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşları 2018-ci il martın 1-dən orta hesabla 10 faiz artırılsın.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 6 mart 2018-ci il.

## T.V.Hüseynova general-mayor ali hərbi rütbəsinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Tofiq Vaqif oğlu Hüseynova general-mayor ali hərbi rütbəsi verilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 9 mart 2018-ci il.

## Ş.S.Heydərova "Əməkdar həkim" fəxri adının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında səhiyyə sahəsinin inkişafında xidmətlərinə görə Şəmsəddin Səftər oğlu Heydərova "Əməkdar həkim" fəxri adı verilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 9 mart 2018-ci il.

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunları hərbi qulluqçularının təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının yaradılmasının 26-cı ildönümü ilə əlaqədar olaraq, dövlətin ərazi bütövlüyünün təmin olunmasında iştirak etdiklərinə, döyüş zamanı igidlik göstərdiklərinə, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə aşağıdakı hərbi qulluqçular təltif edilsinlər:

**"İgidliyə görə" medalı ilə**

Qasımov Yusif Telman oğlu – leytenant (ölümündən sonra)
Abutalıbov Vüqar Elman oğlu – əsgər (ölümündən sonra)

**"Hərbi xidmətlərə görə" medalı ilə**

Məmmədov Asəf İsgəndər oğlu – polkovnik-leytenant
Bəxtiyarov Dilqəm Xurşud oğlu – polkovnik-leytenant
Qasımov Yunis Nizami oğlu – polkovnik-leytenant
Kazımov Bəhruz Cahangir oğlu – polkovnik-leytenant
Ağacanov Əjdər Məclum oğlu – tibb xidməti polkovnik-leytenantı
Mustafayev Azər Nizami oğlu – mayor
Atakişiyev Kamran Şacəddin oğlu – mayor
Orucov Anar Bəxtiyar oğlu – mayor
Rüstəmov Emil Eldar oğlu – mayor
Tarışov Elnur Aydın oğlu – mayor
Mehdiyev Yusif Nağı oğlu – mayor
Nəhmədov Akif Feyzulla oğlu – mayor
Şahrəliyev Fizuli Zahid oğlu – kapitan
Mahmudov Anar Zahid oğlu – baş leytenant.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 9 mart 2018-ci il.

2_Layout 1 14.03.2018 18:10 Page 1



# DAXİLİ QOŞUNLAR İSTƏNİLƏN DÖYÜŞ TAPŞIRIĞINI UĞURLA YERİNƏ YETİRMƏYƏ QADİRDİR

***Martın 12-də Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının yaranmasının 26-cı ildönümü qeyd olunub***

**Əlamətdar hadisə münasibətilə Daxili Qoşunların komandanlığı və bir qrup hərbi qulluqçusu Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib.**

**Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər çiçək dəstələri düzülüb.**

**Sonra Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş Vətən övladlarının unudulmaz xatirəsinə ucaldılmış "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulub.**





















Daxili Qoşunların Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş hərbi qulluqçularının xatirəsinə ucaldılmış abidə də ziyarət olunub.

Daha sonra Daxili Qoşunların Baş İdarəsində bu qurumun yaranmasının 26-cı ildönümünə həsr olunmuş təntənəli mərasim keçirilib.

Mərasimdə daxili işlər naziri, general-polkovnik Ramil Usubov və Azərbaycan Respublikası Prezidentinin hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri Fuad Ələsgərov iştirak ediblər.

Əvvəlcə Daxili Qoşunların döyüş bayrağı salona gətirilib və ulu öndər Heydər Əliyevin, ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda, xidməti borclarını yerinə yetirərkən qəhrəmanlıqla həlak olmuş hərbi qulluqçuların, ümumilikdə bütün şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, dövlət himni səsləndirilib.

Daxili işlər nazirinin müavini-Daxili Qoşunların komandanı, general-leytenant Şahin Məmmədov qurumun yaranması, inkişafı və hazırkı dövrdə fəaliyyəti barədə geniş məruzə ilə çıxış edib. Məruzədə qeyd edilib ki, Ümummilli Lider Heydər Əliyevin 1995-ci il 9 mart tarixli Fərmanı ilə 12 mart - Daxili Qoşunlar Günü kimi müəyyən edilib. Torpaqlarımızın azadlığı uğrunda aparılan döyüş əməliyyatlarında Qoşunların 510 hərbi qulluqçusu həlak olub, 1166 nəfəri yaralanıb, 268 nəfəri itkin düşüb. Hərbi qulluqçulardan 9 nəfəri "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb.

Məruzəçi qeyd edib ki, atəşkəs dövründə Qoşunlarda idarəetmənin təkmilləşdirilməsi, döyüş və peşə hazırlığının yüksəldilməsi, hərbi intizamın möhkəmləndirilməsi, normativ hüquqi və maddi-texniki bazanın yaradılması istiqamətində əməli tədbirlər həyata keçirilib. Xalqımıza, dövlətimizə, dövlətçiliyimizə sədaqət və fədakarlıqla xidmət edən Daxili Qoşunların hərbi qulluqçuları polis orqanlarının əməkdaşları ilə birgə qarşıya qoyulmuş tapşırıqları hər zaman uğurla yerinə yetiriblər. Ötən il ölkəmizdə keçirilən mötəbər beynəlxalq idman yarışları – IV İslam Həmrəyliyi Oyunları, atıcılıq üzrə Dünya Kuboku, Formula 1 Azərbaycan Qran-Prisi, Bakıda və Göygöl rayonunda keçirilən qadınlar arasında voleybol üzrə Avropa çempionatının final mərhələsi və digər beynəlxalq tədbirlərdə qarşıya qoyulmuş tapşırıqların icrası tam təmin edilib. Bu ilin aprelində keçiriləcək Formula 1 Azərbaycan Qran-Prisində də Daxili Qoşunların qarşısında mühüm tapşırıqlar qoyulub. Şübhə yoxdur ki, şəxsi heyət bu dəfə də üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcək.

Azərbaycan Respublikası Prezidentinin hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri Fuad Ələsgərov çıxışında təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulan ordu quruculuğu ənənələrinin bu gün də uğurla davam və inkişaf etdirildiyini bildirib. Prezidentin köməkçisi ali diqqət və qayğı, eyni zamanda, ciddi nəzarət, tələbkarlıq sayəsində Daxili Qoşunların qarşıya qoyulan, qanunvericiliklə üzərinə düşən bütün vəzifələrin öhdəsindən gələ bilən, yüksək peşəkarlığa, döyüş və fiziki hazırlığa malik mobil bir quruma çevrildiyini məmnunluqla vurğulayıb. Fuad Ələsgərov ölkə iqtisadiyyatının davamlı inkişafının və mövcud ictimai-siyasi sabitliyin əməliyyat-xidməti fəaliyyətin təkmilləşdirilməsi, maddi-texniki təminatın daha da yaxşılaşdırılması istiqamətində təşkilati-praktiki addımların atılması üçün əlverişli zəmin yaratdığını qeyd edib.

Daxili işlər naziri, general-polkovnik Ramil Usubov tədbirdə çıxış edərək "Dövlət quruculuğu prosesində Daxili Qoşunların düzgün istiqamətdə təşkil olunması çox əhəmiyyətli məsələdir", - deyən Ulu Öndər Heydər Əliyevin ordu quruculuğu prosesində Daxili Qoşunların təkmilləşməsinə böyük önəm verdiyini, məhz onun xüsusi diqqət və qayğısı ilə formalaşıb inkişaf etdiyini məmnunluqla xatırladıb.

Ramil Usubov vurğulayıb ki, bu gün dövlətimizin başçısının ali diqqət və qayğısının, tələb və göstərişlərinin nəticəsi olaraq, Daxili Qoşunlar qarşısına qoyulan istənilən döyüş tapşırığını yüksək keyfiyyətlə yerinə yetirməyə qadirdir. Nazir deyib ki, Daxili Qoşunların inkişafı üçün qəbul edilən qərarlar, göstərilən diqqət və qayğı şəxsi heyət tərəfindən həmişə dərin minnətdarlıq və ruh yüksəkliyi ilə qarşılanır. Ölkə rəhbərinin Daxili Qoşunların müxtəlif tədbirlərində iştirakı, eləcə də Qoşunların xidməti fəaliyyətinə verdiyi yüksək qiymət, haqqında söylədiyi dəyərli fikirlər, verdiyi tövsiyələr hər zaman fəaliyyət proqramı kimi qəbul olunmaqla şəxsi heyəti daha böyük uğurlara ruhlandırır. Məhz dövlətin əvəzsiz dəstəyi sayəsində Daxili Qoşunların maddi-texniki bazasının, kazarma-yaşayış fondunun yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilib, hərbi hissələr beynəlxalq standartlara uyğun texnika, xüsusi vasitələr və rabitə sistemləri ilə təchiz edilib.

Diqqətə çatdırılıb ki, Daxili Qoşunlar 1997-ci ildən Türkiyənin Jandarma Qüvvələri Baş Komandanlığı ilə sıx əməkdaşlıq edir. Nazir Ramil Usubov əldə edilmiş uğurlarda danılmaz roluna, təmənnasız yardımlarına görə dost və qardaş dövlətin Jandarma Qüvvələri Baş Komandanlığının rəhbərliyinə, hərbi mütəxəssislərinə təşəkkürünü bildirib.

Çıxışının sonunda general-polkovnik Ramil Usubov daxili işlər orqanlarının fəaliyyətini hər zaman yüksək qiymətləndirən, peşə bayramı ərəfəsində bir qrup hərbi qulluqçunu dövlət mükafatları ilə təltif edən, həmçinin şəxsi heyətin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı müvafiq sərəncamlar imzalayan Prezident İlham Əliyevə minnətdarlığını ifadə edərək və əminliklə bildirib ki, hərbi qulluqçular bundan sonra da müstəqilliyin, sabitliyin və təhlükəsizliyin keşiyində ayıq-sayıq dayanacaq, vətəndaşların qanuni mənafelərinin hüquqazidd əməllərdən qorunmasında səy və bacarıqlarını əsirgəməyəcək, döyüş hazırlıqlarını daim artıracaqlar.

Daxili Qoşunların yaranmasının 26-cı ildönümü ilə əlaqədar bir qrup hərbi qulluqçunun təltif edilməsi haqqında dövlətimizin başçısının Sərəncamı, həmçinin daxili işlər nazirinin və nazir müavini-Daxili Qoşunların komandanının imzaladıqları əmrlər elan olunduqdan sonra xidmətdə fərqlənənlərə dövlət təltifləri və yeni rütbələrin paqonları təqdim edilib.

**Daxili İşlər Nazirliyinin Mətbuat xidməti**

3_Layout 1 14.03.2018 18:40 Page 1



ŞƏHİDLƏRİMİZ

## ODLU SƏNGƏRLƏRDƏ MƏRD DÖYÜŞÇÜ KİMİ VURUŞDU...

*"Əvvəla salam. Əziz anam, necəsən? Özünü necə hiss edirsən? Təki yaxşı ol. Mən sağ-salamatam. Ana, mən 9 aydan çoxdur Qarabağdayam. Burada çox şey görmüşəm. Mən ölümlə çox rastlaşmışam burada. Ancaq Allah saxlayanda saxlayır. Mən ölümdən qorxmuram, ölənlərdən nə artığam, nə də ki, əskik...".*

Bu cümlələr şəhid hərbi qulluqçumuz əsgər Rəhmanov İlqar Oqtay oğlunun ön cəbhədən ailəsinə göndərdiyi son məktublardan birində yazılıb. Od-alovlu səngərdə valideynini də düşünən, ona öz duyğularını məktubunda bölüşən İlqar, müharibə sınaqlarına da toxunub, ölümdən qorxmadığını bir cəsur döyüşçü qətiyyəti ilə qeyd edib.

O, 1973-cü il iyulun 29-da Bakı şəhərində anadan olub. Rəhmanovlar ailəsində üç oğul dünyaya göz açıb, İlqar onların ortancılıdır. İlqar Bakı şəhəri Nərimanov rayonundakı 45 saylı, daha sonra Sabunçu rayonu Bakıxanov qəsəbəsindəki 252 saylı ümumtəhsil məktəblərində orta təhsil alıb. 1988-1991-ci illərdə paytaxtın Nərimanov rayonundakı 10 saylı texniki-peşə məktəbində dülgər (inşaatçı) ixtisasına yiyələnib. Ailə üzvlərinin dediyinə görə, İlqar qayğıkeş, ailəcanlı, zəhmətkeş, böyüklərə hörmətlə yanaşan, heç kimdən xeyirxahlığını əsirgəməyən gənc olub. Şəhid ailəsinin ünvanını axtararkən görüşdüyüm qonşuları da onu xoş sözlərlə xatırladılar, İlqarın ciddiliyini, ədəb-ərkanını xüsusi vurğuladılar. İ.Rəhmanov hərbi xidmətədək Keşlə qəsəbəsindəki mebel fabrikində işləyib, öz ixtisası üzrə müəyyən iş səriştəsi qazanmağa səy göstərib. Bununla yanaşı, İlqar "Məhsul" İdman Cəmiyyətində cüdo idman növü üzrə məşqlərə gedib. İştirak etdiyi müxtəlif yarışlarda idmançı bacarığı və qətiyyəti ilə fərqlənib, qalib yerlərə sahiblənərək təltif olunub. O, həmçinin, avtomobil sürməyə həvəs göstərib, imtahan verərək sürücülük vəsiqəsi də alıb.

İ.Rəhmanov 1992-ci ilin fevral ayında Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının sıralarına həqiqi hərbi xidmətə qəbul olunub. Ölkəmiz üçün çətin və gərgin olan həmin dövrdə Daxili Qoşunların formalaşması həyata keçirilirdi. SSRİ dövründən mövcud olmuş və respublikamızın sərəncamına keçmiş hərbi hissələrlə yanaşı, yeni hərbi hissələr də yaradılırdı. 1992-ci ilin mart ayının 12-dən isə Daxili Qoşunlar erməni işğalçılarına qarşı döyüşlərdə iştirak edirdi. Əsgər İ.Rəhmanov o vaxt 3280 saylı hərbi hissənin (1993-cü ilin yanvar ayından 12318 saylı hərbi hissə - Y.A.) təşkil edildiyi, çağırışçıların qəbulu və təlimi funksiyasını yerinə yetirmiş hərbi şəhərcikdə (hazırda 25031 saylı hərbi hissə yerləşir - Y.A.) hərbi xidmətə başlayıb. Bu hərbi



RƏHMANOV İLQAR OQTAY OĞLU



hissədə hərbi andı qəbul edib. Bir neçə aydan sonra bu hərbi hissədən 3645 saylı hərbi hissəyə (1993-cü ilin yanvar ayından 25032 saylı hərbi hissə - Y.A.) göndərilib. Orada çox qısa vaxt hərbi xidmət keçdikdən sonra 1992-ci ilin avqust ayından ön cəbhədə, 3650 saylı hərbi hissənin (1993-cü ilin yanvar ayından 67987 saylı hərbi hissə - Y.A.) tərkibində döyüş tapşırıqlarının yerinə yetirilməsinə cəlb olunub. Onun döyüş yolu Ağdam-Ağdərə cəbhə bölgəsindən keçib. Öncə Ağdamın Seyidli kəndində yerləşdirilən şəxsi heyətin sıralarında olub. Buradan düşmənlə təmas xəttindəki mövqelərimizə göndərilərək torpaqlarımızın müdafiəsində dayanıb, Fərrux yüksəkliyi istiqamətindəki postlarda, habelə Manikli (hazırda Məlikli – Y.A.), Canyataq, Gülyataq, Qalaycılar, Boyəhmədli, Papravənd kəndlərinin ərazisində və ətraf yüksəkliklərdə düşmənlə cəsarətlə vuruşub. Bu döyüşlərdə neçə-neçə erməni işğalçısını məhv edib. Böyük qardaşı Şahinin milli ordu sıralarında döyüşlərdə iştirak etməsi və ağır yaralanması onun üçün Vətən naminə bir fədakarlıq örnəyi idi. Ailəsinə yazdığı məktublardan birində qardaşının vətənpərvərliyindən ruhlandığını qeyd edib və özünün də döyüşçü olması ilə valideynlərinin qürur duymasını istəyib.

Qələbə günümüzü görməyi və doğmalarına qovuşmağı arzulayırdı. Müharibədə nə qədər sarsılsa da, inamını itirməyib. Bunu onun məktublarından duymaq olur. Döyüşçü üçün Vətən sevgisi, əqidəsinə inamı, qorxmazlıq, doğmalarının xeyir-duası və məhəbbəti çox mühüm amillərdir. İlqar son nəfəsinədək döyüş tapşırıqlarını əzmlə yerinə yetirib. Onun son döyüşü 1993-cü il iyun ayının 21-də, Ağdamın Papravənd kəndi (hazırda işğal altındadır –Y.A.) ərazisində olub. Düşmənin hücumunun qarşısını alarkən döyüşdüyü postda ağır yaralanaraq şəhidlik zirvəsinə ucalıb. 29 iyun 1993-cü ildə tərtib olunmuş ölüm haqqında şəhadətnamədə İlqarın güllə yarasından həlak olduğu yazılıb. Ailə üzvlərinin verdikləri məlumata görə isə İlqar döyüşdüyü post düşmən tərəfindən minaatanlardan atəşə tutulub və o, ağır qəlpə yarasından həlak olub. Bunu ailəyə ön cəbhədən cənazəni gətirmiş hərbi qulluqçular bildiriblər.

Şəhid hərbi qulluqçumuz paytaxtın Bakıxanov qəsəbəsindəki Şəhidlər Xiyabanında dəfn olunub. Onun haqqında dövrü mətbuatda yazı dərc edilib. Qeyd edim ki, bu günədək bəzi sənədlərdə şəhidin soyadı yanlış olaraq Rəhimov göstərilib. Ailənin bununla bağlı bildirdiyi irad haqlıdır. Rəhmanovlar ailəsinə dövlətimiz tərəfindən müvafiq müavinət təyin olunub.

İlqarın atası 2012-ci ildə vəfat edib. Anası Nəsibə xanım və qardaşları Şahin və Vüqar bu ötən illəri onun yoxluğunun ağrı-acısı ilə yaşayıblar, zaman keçsə də, doğma adamın, özü də müharibədə canını qurban vermiş bir gəncin itkisi ilə barışmaq yenə də çox çətindir. Ancaq heç bir müharibə itkisiz olmur. Bu da təkzibolunmaz bir həqiqətdir.

Rəhmanovlar ailəsində İlqarın adını qardaşı oğlu daşıyır. İlqar tək bir ailənin deyil, bütövlükdə xalqımızın fəxr etdiyi oğullardan biri kimi həmişə ehtiramla anılacaq.

**Allah rəhmət eləsin!**

**Yalçın Abbasov**

## "VƏTƏNİMƏ XİDMƏTİMLƏ FƏXR EDİRƏM!"

Respublikamızda bir çox sahələrdə olduğu kimi gənc və yeniyetmələrin fiziki inkişafına, sağlam gələcəyimizin formalaşmasına da xüsusi fikir verilir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısı nəticəsində ölkəmizdə idman sahəsində müşahidə olunan inkişaf və əldə olunan nailiyyətlər məhz bu qəbildəndir. Paytaxt Bakı ilə yanaşı, bölgələrimizdə də tikilib vətəndaşların istifadəsinə verilən idman və sağlamlıq kompleksləri, eləcə də ölkəmizdə idmanın müxtəlif növləri üzrə keçirilən yerli və beynəlxalq əhəmiyyətli yarış və turnirlər bu fikri bir daha təsdiq edir.

Sıralarında xidmət edən şəxsi heyətin böyük bir qismini gənclər təşkil edən Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında da idmanın inkişafına xüsusi diqqət yetirilir. Hərbi qulluqçularımızın müxtəlif idman yarışlarında əldə etdiyi qələbələr buna bariz nümunədir. Yüksək nizam-intizamı və nümunəvi xidməti ilə yanaşı, idmançı kimi bir çox qələbələrə imza atmış belə hərbi qulluqçularımızdan biri də Daxili Qoşunların 67987 saylı hərbi hissəsinin zabiti kapitan Həşimov Aydın Balaşah oğludur.

Kapitan Aydın Həşimov 1978-ci il may ayının 29-da Bakı şəhərində anadan olub. 29.06.2000-ci ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetini bitirib. Hələ 12 yaşından idmanın "cüdo" növünə böyük maraq göstərən Aydın, "Lokomativ" İdman Cəmiyyətində bu peşənin "sirlərini" öyrənməyə başlayıb. 1992-2000-ci illərdə isə o, "cüdo" ilə yanaşı, həvəskar idmançı kimi idmanın "karate-do" və "sərbəst güləş" növləri ilə də məşğul olub. İdmanın məşğul olduğu hər üç növündə də qələbələr əldə edib və müxtəlif mükafatlarla təltif olunub.

2003-cü ildən Azərbaycan Respublikası Ciu-Citsu Federasiyasının milli yığma komandasının üzvü olan Aydın, xarici ölkələrdə keçirilən mötəbər



yarışlarda respublikamızı yüksək səviyyədə təmsil edərək, dəfələrlə beynəlxalq turnirlərin qalibi olub. Belə ki, 2007-ci ildə Ukraynanın Yalta şəhərində keçirilən əlbəyaxa döyüş növləri üzrə "Dünya kuboku"nun qalibi və çempionatın "Ən yüksək texnikalı idmançı"sı adına layiq görülüb. Aydın həm də 2007-ci ildən Ciu-Citsu üzrə 1-ci Dan qarakəmər sahibidir. Onun nailiyyətləri bununla bitmir. 2007-2008-ci illərdə Əlbəyaxa döyüş üzrə iki dəfə "Respublika çempionu" adını qazanan kapitan A.Həşimov, 2008-ci ildə Moskvada keçirilən Ciu-Citsu üzrə beynəlxalq yarışın və Gürcüstanda təşkil olunan peşəkarlararası "Silver Sword-Grand Prix" beynəlxalq turnirin Çempionu adını qazanıb. 2009-cu ildə isə hərbi qulluqçumuz RF-nın Dağıstan Respublikasının Dərbənd şəhərində "Beynəlxalq dərəcəli idman ustası" adına layiq görülüb.

2012-ci ilin sentyabr ayından 2013-cü ilin fevral ayınadək Çinin Quanjou şəhərində Hərbi İdman Akademiyasında "uşu-sanda" idman növü üzrə təşkil olunan təlim kursuna cəlb olunan Aydın, burada da yüksək nəticələr göstərərək, respublikamızı layiqincə təmsil edib. Asiya, Afrika və Cənubi Amerika ölkələrinin müvafiq hərbi qurumlarını təmsil edən hərbi qulluqçular arasında kursu yüksək nəticələrlə başa vuraraq, birinci yerə layiq görülüb. Kurs ərəfəsində xarici ölkələrin idmançıları arasında uşu-sanda üzrə çempion, eyni zamanda "Ən güclü idmançı" adını qazanaraq, yarışın kubok və fəxri fərmanı ilə mükafatlandırılıb. Ən maraqlısı isə yarış zamanı yerli idman professorlarının bizim döyüş texnikamıza və üslubumuza xüsusilə böyük maraq göstərmələri olub. Onlar Aydının döyüş üslubunu və texnikasını bəyənərək, filmə çəkilməyini təklif ediblər. Təklifi dəyərləndirən Aydın: "... Mən də Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətində bir neçə il ərzində aldığım təhsil və təcrübəni Çin müəllimlərinin təcrübəsindən üstün olduğunu nümayiş etdirmək məqsədilə bu təklifi qəbul etdim. Bununla da Azərbaycan hərbçilərinin fiziki hazırlıq və özünümüdafiə qabiliyyətinin hansı səviyyədə olduğunu qürurla nümayiş etdirdim" – deyir.

Daxili Qoşunların Baş İdarəsində qərargahın döyüş hazırlığı şöbəsində fiziki hazırlıq rəisi polkovnik-leytenant Vaqif Yüzbaşıyev kapitan A.Həşimovu nizam-intizamlı və nümunəvi hərbi qulluqçu olması ilə yanaşı, əsl idmançı kimi ölkəmizi beynəlxalq yarışlarda layiqincə təmsil etməsini yüksək qiymətləndirdiyini dedi: "Kapitan A.Həşimov həm hərbi qulluqçu, həm də bir idmançı kimi olduqca nizam-intizamlı və məsuliyyətlidir. Onun ən müsbət xarakterik xüsusiyyəti yarış öncəsi öz güvvəsinə və qələbəsinə inamının son dərəcə güclü olmasıdar. Bu isə Aydına iştirakçısı olduğu yarışlarda rəqibləri üzərində qələbələr qazanmasına imkan verir...".

Məlumat üçün qeyd edək ki, kapitan A.Həşimov nümunəvi xidmətinə və yüksək nizam-intizamına görə Azərbaycan Respublikasının "Hərbi xidmətlərə görə" medalı ilə, həmçinin Daxili İşlər Naziri və Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı tərəfindən müxtəlif mükafatlarla təltif olunub.

Vətənimizə xidmətilə fəxr etdiyini deyən Aydının bir amalı var, bu da iştirak etdiyi bütün beynəlxalq yarışlarda Azərbaycanın üçrəngli Dövlət Bayrağını zirvələrə qaldırmaq və Dövlət Himnimizi səsləndirməkdir. Vətənpərvər silahdaşımız kapitan A.Həşimovu təbrik edir, xidmətində yeni-yeni uğurlar arzu edirik.

**"Əsgər"**

## NAİLİYYƏTLƏRİMİZ XİDMƏTİN UĞURLU TƏŞKİLİNDƏN XƏBƏR VERİR

***Hərbi qulluqçu dedikdə Vətəninə, torpağına bağlı olan, onun yolunda hər an canından keçməyə hazır olan insan gəlir göz önünə. Sözsüz ki, hər bir insanda elə, obaya bağlılıq, Vətənə sevgi bu və ya digər şəkildə formalaşır. Lakin həyatını hərbi xidmətə bağlayan, ölkəsinin ərazi bütövlüyünü təmin etmək üçün əldə silah müsəlləh əsgər kimi ayıq-sayıq xidmət aparan hər bir hərbi qulluqçu Vətəninin müdafiəsi üçün şəxsi məsuliyyət daşıyır. O, Azərbaycan dövlətinin mənafeyini qorumağa, onun nüfuzunun və qüdrətinin möhkəmlənməsinə səy göstərməyə, Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına riayət etməyə, hərbi andı yerinə yetirməyə, komandirlərə sözsüz tabe olmağa və döyüşdə onları müdafiə etməyə, öz hərbi hissəsinin Döyüş Bayrağını göz bəbəyi kimi qorumağa borcludur.***

Daxili Qoşunların 17071 saylı hərbi hissəsinin komendant bölüyündə xidmət edən hər bir hərbi qulluqçu bu fikirləri dərindən dərk edir, xidməti vəzifə borcunu hərbi nizamnamələrdə əks olunan tələblərə uyğun həyata keçirir. Bölük komandiri baş leytenant Sərxan Qafarovla söhbət zamanı vəzifələrinin icrasında bölüyün hərbi qulluqçularının təşəbbüskarlıq göstərdiklərini, döyüş hazırlığının daim yüksək səviyyədə saxlandığını bildirdi. Qeyd etdi ki, xidmət Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Qarnizon və Qarovul Xidmətləri Nizamnaməsinin tələbləri əsasında aparılır, hərbi obyektlərin etibarlı mühafizəsinin təşkili üçün hər bir hərbi qulluqçu müəyyən edilmiş tələblərə ciddi əməl edir. Həmçinin postda xidmət aparan saatdarların ayıq-sayıqlıq, dözümlülük, çeviklik və cəsarətlilik kimi keyfiyyətlərə malik olduqlarını nəzərə çatdırdı. Bölükdə elə bir mühit formalaşıb ki, döyüşçü yoldaşlığına sadiq olan hərbi qulluqçular hərbi xidmətin bütün çətinlik və məhrumiyyətlərinə mətinliklə dözməyi bacarırlar. Ümumiyyətlə, şəxsi heyət üzərilərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəldiyini deyən baş leytenant S.Qafarov qarovul xidmətinin rəisi kimi baş çavuş Valeh Əsədullayevin fəaliyyətini müsbət qiymətləndirdi.

Baş leytenant S.Qafarov daha sonra xidmətə cəlb olunan hərbi qulluqçuların fiziki və atəş hazırlığının yüksək olması ilə yanaşı, onların bilik və bacarıqlarının, eyni zamanda hərbi savadlarının qənaətbəxş olduğunu söylədi. Qarovul xidmətinə cəlb olunan hərbi qulluqçuların seçiminə, o cümlədən onların mənəvi-psixoloji durumlarının yüksək səviyyədə olmasına xüsusi diqqət yetirilir. Xidmətə cəlb edilməzdən öncə şəxsi heyətə yerinə yetirdikləri döyüş tapşırığının əhəmiyyəti izah edilir. Onların hər birindən müvafiq nizamnamələrə uyğun xidmət aparmaları





tələb olunur. Bir daha diqqətə çatdırılır ki, Qarovul xidməti döyüş bayrağının, silah-sursatların və texnikanın, başqa əmlakın saxlandığı yerləri, digər hərbi obyektləri etibarlı mühafizə və müdafiə etmək üçün nəzərdə tutulub.

Qarovul rəisinin köməkçiləri çavuş İbrahim İsgəndərov, əsgərlər Kənan Hüseynli, Nəsrəddin Seyidov, Surxay Həsrətli, İsmayıl Talıbov xidmətdə əzmkarlıq nümayiş etdirən hərbi qulluqçular kimi xarakterizə edildilər.

Hərbi biliklərini müntəzəm surətdə təkmilləşdirən şəxsi heyət, təhkim olunmuş silahın taktiki-texniki xüsusiyyətlərini dərindən mənimsəyib. Postlarda saatdarın ayıq-sayıq xidmət aparması, silahın doldurulub-boşaldılması zamanı təhlükəsizlik qaydalarına ciddi riayət olunması, eləcə də qarovul otağında sakitliyə və qayda-qanuna əməl edilməsi əsas tələblərdəndir.

Qarovul otağında da şəxsi heyət diqqətdən kənarda qalmır. Bu tədbirlər də müvafiq nizamnamənin tələblərinə uyğun həyata keçirilir. Mahnı oxumaq və çalğı alətlərində çalmaq qadağandır. Radio verilişlərinə ancaq qulaqlıq vasitəsilə qulaq asmağa, kitab oxumağa, yazmağa, şahmat və dama oynamağa icazə verilir. Komendant bölüyündə xidmətin qürurverici olduğunu, məsuliyyət hissinin yüksək olduğunu söyləyən baş leytenant S.Qafarov hər zaman xidmətdə sayıqlıq nümayiş etdirəcəklərinə, bundan sonra da üzərlərinə düşən vəzifələrin icrasına layiqincə yanaşacaqlarına, Daxili Qoşunlar Komandanının etimadını doğruldacaqlarına söz verdi.

**leytenant N.Ağayeva**

4_Layout 1 14.03.2018 18:28 Page 1



AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ - 100

# ŞƏRQİN İLK DEMOKRATİK RESPUBLİKASI...



*(əvvəli ötən sayımızda)*

XIX əsrin sonlarından başlayaraq, erməni millətçi təşkilatları Azərbaycanın əzəli torpaqları olan Qarabağ, Naxçıvan və Zəngəzur bölgələrinə yiyələnmək üçün cəhdlər göstərirdilər. Erməni millətçiləri AXC yarandıqdan sonra Azərbaycanın daxilində və beynəlxalq aləmdə yaranmış mürəkkəb və ziddiyyətli durumdan istifadə edərək özlərinin uydurma "Böyük Ermənistan" yaratmaq ideyasını həyata keçirmək üçün yenidən geniş fəaliyyətə başladılar. Bu istiqamətdə onların ilk hədəfi Zəngəzur və Qarabağı ələ keçirmək idi. Ancaq Azərbaycan hökumətinin barışmaz mövqeyi onların planlarının gerçəkləşməsinə imkan vermədi.

Azərbaycanın Qarabağ bölgəsi tarixən Cənubi Qafqaz regionunda böyük strateji əhəmiyyət kəsb etdiyindən həm ölkəmizin yaxın qonşuları olan Rusiya, İran, Türkiyə, Ermənistan, həm də XX əsrdə dünyanın aparıcı dövlətləri kimi İngiltərə, Fransa və ABŞ bu bölgəyə xüsusi maraq göstərirdilər.

Tarixi həqiqət olaraq qeyd etmək lazımdır ki, Azərbaycan üçün çətin və mürəkkəb olan 1918-ci ildə yalnız Türkiyə dövləti respublikamızın ərazi bütövlüyünün və suverenliyinin qorunmasında ilk gündən hərtərəfli siyasi və hərbi yardım göstərmişdir. Bu yardım erməni millətçilərinin və onların havadarları olan bolşeviklərin Azərbaycanın tarixi taleyi üçün təhlükəli cəhdlərinin həyata keçirilməsinə mane olmuşdur.

Qafqaza XIX əsrdə kütləvi şəkildə köçürülərək, məskunlaşmış ermənilər XX əsrin əvvəllərində öz tarixi torpağında yaşayan bütün azərbaycanlıları planlı surətdə qovmağa, qırmağa və milli soyqırımı törətməyə başladılar. Tarixi Azərbaycan torpaqları olan İrəvan, Zəngəzur və Göyçə mahallarının Ermənistana verilməsi azmış kimi, Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi siyasəti ermənilər tərəfindən daim diqqətdə saxlanmış və bu iddia ilə onların vaxtaşırı çıxışları olmuşdur. Qaloyan yazırdı: "Batum müqaviləsindən sonra (1918-ci il 4 iyun) ermənilərə qalan torpaqlar cəmi 8 min kvadrat mil təşkil edirdi".

Respublikalar yaranan kimi, İrəvanın təbliği, təhriki və təzyiqi ilə Qarabağın dağlıq hissəsindəki erməni əhalisinin müəyyən təbəqələri Azərbaycan Respublikasının hakimiyyətini tanımaqdan imtina etdi. Dağlıq Qarabağ ermənilərinin 1918-ci ilin iyulunda Şuşada keçirilən I qurultayı Yuxarı (Dağlıq) Qarabağı müstəqil elan etdi və Ermənistan hökuməti Yuxarı (Dağlıq) Qarabağda işğalçılıq planlarını həyata keçirmək üçün oraya silahlı qüvvələr yeritdi. Bu faktlar göstərir ki, Ermənistan Yuxarı (Dağlıq) Qarabağ problemini hərbi yolla həll etmək istəyirdi. Ona görə də 1918-ci ildə Andranikin silahlı quldur dəstələri Qarabağa yeridilmişdi. Qarabağ torpağını ələ keçirməyə can atan daşnaklar nə kütləvi qırğınlardan, nə də onlarca yaşayış məntəqəsini yer üzündən silməkdən çəkinirdi. Hələ 1919-cu ilin yanvarında daşnak hökuməti Qarabağ ərazisi ilə əlaqədar iddialar irəli sürmüşdü. Hökumət Qarabağın müdafiəsini gücləndirmək üçün oraya hərbi qüvvələr göndərməli oldu və nəhayət, X.P.Sultanovun rəhbərliyi ilə mərkəzi Şuşa şəhəri olan Zəngəzur, Şuşa, Cavanşir və Cəbrayıl qəzalarını əhatə edən Qarabağ general-qubernatorluğu yaradıldı. Həmin qubernatorluq Yuxarı Qarabağda və Zəngəzurda erməni separatçılığının aradan qaldırılmasında son dərəcə mühüm rol oynamışdır.

Yeni vəzifəyə təyin edildikdən sonra hələ Bakıda ikən X.P.Sultanov general-qubernatorluğun təşkili ilə əlaqədar bəzi işləri görmüş və 1919-cu il fevralın 12-də Şuşaya gələrək, vəzifəsinin icrasına başlamışdı. Qeyd etmək lazımdır ki, AXC hökumətinin bu addımı azərbaycanlı əhali tərəfindən böyük razılıqla qarşılanmışdı. Fikrimizcə, qubernatorluğun yaradılması Qarabağ ermənilərinin AXC hökumətini tanımalarında əsas amillərdən biri olmuşdur.

X.P.Sultanov Şuşaya gələn kimi Qarabağda və Zəngəzurda vəziyyətlə tanış olmaq üçün ingilis, Azərbaycan və erməni nümayəndələrinin iştirakı ilə bir neçə rəsmi müşavirə keçirmişdir. Həmin müşavirələrin protokollarından məlum olur ki, general-qubernator vəzifəyə çox ciddi yanaşmış və hər bir məsələyə dair konkret göstəriş vermişdi. Qeyd etmək lazımdır ki, Qarabağı Azərbaycandan ayırmaq istəyən və daim azərbaycanlılarla ermənilər arasında nifaq toxumu səpən Erməni Milli Şurasının rəhbərləri bu müşavirələrə gəlməmiş, Azərbaycan hakimiyyətini tanımadıqlarını bəyan etmişdilər. Buna cavab olaraq X.P.Sultanov Erməni Milli Şurasının rəhbərindən 5 nəfəri müttəfiq nümayəndələrin köməyi ilə Qarabağdan sürgün edə bilmişdi.

Çoxsaylı arxiv sənədləri və bir sıra tədqiqatçıların araşdırmaları sübut edir ki, AXC hökuməti tərəfindən Zəngəzur qəzasını əhatə edən Qarabağ general-qubernatorluğunun yaradılması və X.P.Sultanovun oraya başçı təyin olunması Ermənistanı xeyli təşvişə salmış və onun Yuxarı (Dağlıq) Qarabağla bağlı ərazi iddialarını puça çıxarmışdı.

ABŞ-da yaşayan erməni tarixçisi R.Hovannesyan bu barədə yazırdı: "Acıqlanmış ermənilərin özləri üçün təhqir üstündən təhqir hesab etdikləri və bərk qorxduqları məşhur armenofob X.P.Sultanovun Tomson tərəfindən hər iki ərazinin qubernatoru təyin edilməsi idi".

Azərbaycan hökuməti, təbii ki, respublikanın ərazi bütövlüyünün və suveren hüquqlarının pozulmasına yol verə bilməzdi və qonşu dövlətin onun daxili işlərinə qarışmaq cəhdləri ilə barışmazdı. Bununla yanaşı, Azərbaycan hökuməti bütün münaqişələri sülh yolu ilə həll etməyə hazır olduğunu bildirmişdi və bu niyyətinə sadiq idi. Ermənilərin diplomatik və siyasi oyunları daşnak mətbuatının saxta, eyni zamanda, məqsədyönlü və sistemli təbliğatı ilə tamamlanırdı. Uzun sürən müzakirə və mübahisələrdən sonra ingilislər güzəştsiz mövqe tutaraq ermənilərdən Müttəfiqlərin komandanlığının qərarlarına tabe olmağı, Qarabağda və Zəngəzurda AXC hakimiyyətini tanımağı tələb etdi. Qarabağın general-qubernatoru X.P.Sultanovun gördüyü ciddi tədbirlər nəticəsində Şuşa rayonunda qayda-qanun bərpa olundu və həyat normal axara düşdü.

Qeyd edildiyi kimi, X.P.Sultanov Şuşaya gələn andan Qarabağ torpağını erməni quldur dəstələrindən azad etmək üçün gərgin fəaliyyətə başladı. 1919-cu il fevralın 12-də Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzur qəzalarının əhalisinə müraciət edərək general-qubernatorluğun yaradılması səbəblərini izah etdi. X.P.Sultanovun Qarabağ hadisələrini real qiymətləndirməsi və bu problemi həll etmək səyləri onun "Azərbaycan" qəzetinə verdiyi müsahibəsində açıqlanmışdır.

Hətta bundan sonra da Qarabağın qəsbkar erməni separatçıları Ermənistan hökumətinin yardımı ilə Qarabağı Azərbaycan Respublikasının tərkibindən ayırmaq və Ermənistana birləşdirmək səylərini davam etdirirdi. 1919-cu il iyunun 4-də Yuxarı Qarabağ ermənilərinin silahlı dəstələri Şuşa ətrafındakı azərbaycanlı hərbi hissələrin yerləşdiyi gözətçi məntəqələrinə hücum etdi. Lakin onların bu hücumu X.P.Sultanovun gördüyü qəti tədbirlər nəticəsində dəf edildi. Ermənistan separatçıları Qarabağda öz fitnəkar fəaliyyətlərinə ermənilər qarşısında bəraət qazandırmaq üçün yalan məlumatlar yayaraq xarici dövlətlərə müraciət etməyə, Azərbaycana təsir etməyə hər vasitə ilə cəhd göstərirdilər. Arxiv sənədlərindən məlum olur ki, Yuxarı Qarabağın dinc erməni əhalisinin əksəriyyəti erməni separatçılarının fitnələrinə uymamış və general-qubernator X.P.Sultanovun gördüyü tədbirləri bəyənmişdi.

Yuxarı Qarabağda milli münaqişənin beynəlxalq aspektdə tənzimlənməsi AXC-nin qarşısında duran ən mühüm məsələlərdən idi. 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasətinin başlıca məqsədi Azərbaycanın müstəqilliyinin beynəlxalq aləmdə təsdiqlənməsindən ibarət idi. Qonşu ölkələrin Azərbaycanın istiqlaliyyətini tanıması müstəqilliyin dönməzliyinin təmin edilməsi üçün hələ yetərli deyildi. AXC-nin xarici siyasətinin ana xəttini təşkil edən bu vəzifənin həyata keçməsinə ölkənin ən nüfuzlu şəxsləri cəlb edilmiş, bu sahəyə birinci dərəcəli əhəmiyyət verilmişdi.

1919-cu il yanvarın 8-də Azərbaycan nümayəndə heyəti parlamentin sədri Ə.M.Topçubaşovun rəhbərliyi altında Paris Sülh Konfransına yola düşdü. Azərbaycan Demokratik Respublikası haqqında məsələyə 1919-cu il mayın 2-də Dördlər Şurasının iclasında rəsmi şəkildə baxıldı. Həmin gün ABŞ prezidenti V.Vilson tələb etdi ki, Azərbaycan nümayəndə heyətinə konfransın işində iştirak etmək üçün icazə verilsin.

May ayının 28-də Azərbaycan nümayəndə heyəti ABŞ prezidenti V.Vilson tərəfindən qəbul edildi. Nümayəndə heyəti V.Vilsona qısa siyasi memorandum təqdim etdi. Memorandumda Azərbaycanda baş verən ictimai-siyasi hadisələr, ərazi bütövlüyü məsələsi qısa şəkildə təsvir ediləndən sonra nümayəndə heyətimizin tələbləri verilirdi. Bu tələblər altı maddədən ibarət idi. Vilsonun cavabı isə dörd bənddən ibarət olmuşdu.

*(davamı gələn sayımızda)*

## idman

Fevralın 17-də Daxili Qoşunların Təlim Mərkəzində zabit, gizir və müddətdən artıq xidmət edən həqiqi hərbi qulluqçular arasında atıcılıq üzrə yarış keçirilib. Yarışda DQBİ-dən, Ali Hərbi Məktəbdən, 99713, 67987, 16075, 25031 və 16076 saylı hərbi hissələrdən 7 komanda (40 nəfər) iştirak edib. Şəxsi və komanda birinciliyi uğrunda yarışın nəticələri aşağıdakı kimi olub:

**AKM**

**I yer** - kapitan Gülalıyev Ruslan (AHM);

**II yer** - baş leytenant Mövsümov Elşad (16076 saylı hərbi hissə);

**III yer** - baş leytenant Orucov Polad (99713 saylı hərbi hissə).

**Zəfər-K tipli tapanca (kişilər arasında) PM-1**

**I yer** - baş leytenant İbadov Elşən (67987 saylı hərbi hissə);

**II yer** - baş çavuş Şukurulayev Xudaverdi (99713 saylı hərbi hissə);

**III yer** - çavuş Əliməmmədov Elşən (99713 saylı hərbi hissə).

**Zəfər-K tipli tapanca (kişilər arasında) PM-4**

**I yer** - baş çavuş Şukurullayev Xudaverdi (99713 saylı hərbi hissə);

**II yer** - gizir Abbasov Elvin (16075 saylı hərbi hissə);

**III yer** - baş leytenant Quliyev Rüfət (AHM).

**Zəfər-K tipli tapanca (qadınlar arasında) PM-1**

**I yer** - gizir Şıxıyeva Rəhilə (AHM);

**II yer** - gizir Ağazadə Nigar (DQBİ);

III yer - çavuş Cabbarlı Fəridə (16076 saylı hərbi hissə).

**Zəfər-K tipli tapanca (qadınlar arasında) PM-5**

**I yer** - çavuş Cabbarlı Fəridə (16076 saylı hərbi hissə);

**II yer** - baş çavuş Petrova Rada Petrovna (16075 saylı hərbi hissə);

**III yer** - gizir Məmmədova Günel (67987 saylı hərbi hissə)

**Komanda üzrə**

**I yer** - Ali Hərbi Məktəb - 567 xal;

**II yer** - 99713 saylı hərbi hissə - 553 xal;

**III yer** - 16075 saylı hərbi hissə - 517 xal.

**leytenant N.Ağayeva**

## metodiki vəsait

# ATLETİKANIN NƏZƏRİ VƏ TƏCRÜBİ MƏSƏLƏLƏRİ

*(əvvəli ötən sayımızda)*

***Buna görə də qısa məsafəli qaçış zamanı insanda daha cox sürət-güc elementləri inkişaf etdirilir. Qısa məsafələrə qaçan idmançıların əzələ tipləri və quruluşca daha iri həcmli və qüvvətli olur. Bu səbəbdən də qısa məsafəyə qaçan idmançılar uzaq məsafəli qaçışa alışqanlı deyillər. Daxili Qoşunlarda əsasən 100 metr və 1000 metr qaçış tətbiq edildiyinə görə bu hərəkətlər dəqiq öyrədilməli və inkişaf olunmalıdır.***

Qısa məsafələrə qaçış hərəkətlərin daha dəqiq desək 100 metrə qaçış hərəkətinin mükəmməl icrasını təmin etmək üçün start duruşunun qaydasını bilmək lazımdır.

Start duruş qaydası 110-130 dərəcə bucaq altında icra olunmalıdır. (Yüksək start duruşu) Bunun səbəbi isə qısa məsafəli qaçışlarda surətin yığılması ən vacib məsələdir. Buna görə qısa məsafəli qaçış hərəkətlərinin nəticələrinin yaxşılaşması üçün 30 m, 40 m, 50 m və 60 m məsafəyə qaçış hərəkətlərinin icrasına xüxusi diqqət yetirmək lazımdır. Bu cür qısa məsafəyə qaçış hərəkətlərini mükəmməl səviyyəyə çatdırmaq istər vaxt baxımından, itərsə də sürət baxımından daha məqsədəuyğundur.

Bundan başqa Daxili Qoşunlarda tətbiq edilən 1000 m məsafəyə qaçış növü mövcuddur. 1000 m məsafəyə olan qaçış növü orta məsafəli qaçış növü sayılır. Bu qaçış növü hərbi qulluqçuların döyüş tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirmələrinə kömək edir.

Bu cür qaçış növü həm də bütün kateqoriyalı hərbi qulluqçulardan fiziki hazırlıq imtahanları zamanı qəbul olunur. 1000 m məsafəyə qaçış növü insanda iradi keyfiyyətləri, dözümlüyü və fiziki gücü artırır. Bu cür qaçışlarda hərbi qulluqçu yüksək nəticələr əldə etmək üçün düzgün məşq planı tərtib etməli və buna uyğun məşğələlərdə fiziki yükün bölüşdürülməsinə ciddi nəzarət etməlidir.

Ümumən fiziki yükün düzgün bölüşdürülməsi məşq prosesində ən vacib şərtlərdən biridir. Fiziki yükün bölüşdürülməsi həftəlik, aylıq, rüblük, yarımillik və illik plana uyğun bölüşdürülməlidir. Əlbəttə ki, komandir heyətinin bu plana uyğun məşq prosesini bölüşdürməsi tabeliyində olan hərbi qulluqçunun nə vaxt, hansı yoxlama və ya yarışa hazırlıq məşğələsindən asılıdır.

Bundan başqa hərbi qulluqçuların qida rasionunda verilən qidanı tam yeməsinə nəzarət edilməlidir ki, bu da öz növbəsində itirilmiş enerji sərfiyyatını bərpa edir. Eyni zamanda istirahət və yuxu prosesinə nəzarət edilməlidir. Orqanizmin enerji bərpasi üçün ən əlverişli yuxu həcmi səkkiz saat sayılır. Bu yuxu vaxtı insanda nə passivliyi, nə də ki, orqanizmin enerji sərfiyyatını azaltmır, əksinə onun tam bərpa olunmasına kömək edir.

1000 m məsafəyə qaçış zamanı orqanizmin ona uyğun hazırlanmasını nəzərə almaq lazımdır. Bütün məşğələlərin və ya hansı bir qaçış növündən asılı olmayaraq bədənin isinməsi mütləqdir. Çünki dəfələrlə sübut olunub ki, əzələlərdə baş vermiş zədələnmələr məşq prosesində bədənin isinmə hərəkətlərinə ciddi önəm verilməməsi nəticəsində baş verib. Bu xəsarətalmalar nəticəsində bir cox hallarda ciddi fəsadlar baş verib və bəzən də xroniki hallara çevrilib. Məşq prosesində uğurlu və gözlənilən nəticələrin əldə edilməsi üçün bədənin isinmə hərəkətlərinin düzgün qaydada yerinə yetirilməsi vacibdir.

1000 m məsafəyə qaçış növü orta məsafəli qaçış növü olduğu üçün onun icrası zamanı hərbi qulluqçuların bir necə qrupa bölünməsi məsləhət görülür. Əlbəttə ki, icra edən insanın fizioloji baxımdan orqanızmin hazırlığına diqqət yetirmək lazımdır. İnsanın artıq çəkisini və onun fiziki hazırlığını yoxlamaq lazımdır. Bunun yoxlanması üçün həmin hərbi qulluqçunun ən azı bir dəfə 1000 m məsafəyə vaxtı nəzərə almadan qaçması lazımdır.

Bununla da onun iradi keyfiyyətlərini, nəfəs alıb-vermə qabiliyyətini öyrənmək mümkündür ki, bundan sonra həmin hərbi qulluqçunun 1000 m məsafəyə qaçış zamanı hərəkətinin inkişaf etməsi üçün hansı cür qaçış hərəkətlərindən isifadə etməsi məsləhət görülsün.

***Məsələn:*** çəkisi normadan artıq olan hərbi qulluqçuların 1000 metr məsafəyə qaçış hərəkətlərinin yaxşılaşdırılması üçün bu məsafəni hissələrə bölməsi daha məqsədəuyğundur. Əlbəttə ki, bu yalnız nəticələri zəif olan hərbi qulluqçulara aiddir. 1000 m məsafəyə qaçış hərəkətini 5-3 hissəyə bölmək olar. Yəni qaçış zamanı 200 metrdən bir qaçan səxs sürəti artırmalı və bununla da ayaqlarda əzələ kütləsinin güclənməsinə kömək edib onun daha da dözümlü olmasına çalışmalıdır.

Digər bir halda 1000 m məsafəyə qaçış hərəkətini 3 hissəyə bölən zaman qaçan şəxs 300 metrdən bir sürət verməlidir. Bu hərəkəti əlbəttə ki, ayaq əzələlərində yetərincə qüvvəsi olan, yalnız nəfəsalma qabiliyyətini zəif mənimsəyən hərbi qulluqçular yerinə yetirə bilər. Bundan əlavə digər qaçış taktikasında isə ilk 500 metrə qaçış hərəkətini sürətlə yerimәsi mövcuddur. Belə bir qaçış hərəkəti ayaq əzələlərində yetərincə qüvvəsi olan, 100 m məsafəyə qaçış hərəkətini uğurla yerinə yetirən, yalnız nəfəsalma qabiliyyəti zəif olan və bu qaçış növündən az istifadə edən hərbi qulluqçulara aiddir.

Belə hərbi qulluqçuların bu qaçış növündən az istifadə etməsi nəticəsində onların nəfəsalma qabiliyyəti azalır və ürək döyüntüsü artır. Bu oksigenin bədəndə azalmasına gətirib çıxarır və nəticədə hərbi qulluqçu qaçış zamanı təyin olunmuş normativi yerinə yetirə bilmir. Əlbəttəki 1000 m məsafəyə qaçış stadionlarda, manejlərdə və ya dairəvi yollarda keçirilə bilər. Buna görə də belə hallarda bu məsafəyə qaçan şəxs döngələrdə sürəti nisbətən azaltmalı və düz yola çıxdıqda isə sürəti təkrar artırmalıdır. Bunun səbəbi isə döngələrdə sürətlə hərəkət edən şəxslərdə enerji itkisi ikiqat olur və nəfəsalma qabiliyyəti daralır. Bu isə öz növbəsində düz yola çıxdıqdan sonra onu təkrar bərpa etməsinə maneçilik törədir.

Qaçış hər şeydən əvvəl, ürək üçün bir fiziki gərginlikdir. Qaçış bütün orqanizmə silkələnmə verdiyinə görə hipertoniya, təngnəfəslik, zökəmdən qorunmaq üçün ən yaxşı vasitədir. O, həmçinin, qan dövranını yaxşılaşdırır və bütün əzələ qruplarını formaya salır. Belə ki, insan qaçanda yalnız baldır və bud işləmir, həm də qarın, əl, boyun fəaliyyətdə olur. Qaçışın ən əsas üstünlükləri stresi götürmək, insanlarda ahəngdar fiziki və psixoloji inkişafa imkan yaratmaq qabiliyyəti, psixi, emosional və fiziki narahatlığın aradan qaldırılmasıdır.

Ümümilikdə hərbi qulluqçuların qarşısına qoyulmuş tapşırıqların uğurla yerinə yetirilməsi üçün fiziki hazırlığın yüksək səviyyədə saxlanılması vacib şərtdir və bu normativlərin yüksəlməsi üçün bütün komandir heyəti buna ciddi nəzarət etməli, ayda 1 dəfədən az olmayaraq hərbi qulluqçulardan məqbullar qəbul etməlidirlər.

**Daxili Qoşunların**
**Ali Hərbi Məktəbinin**
**Fiziki Hazırlıq kafedrası**

# Allah rəhmət eləsin

25033 saylı hərbi hissənin komandanlığı baş gizir Ülfət Hüseynova **qardaşının** vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir..

*TƏSİSÇİ:*
**Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.**
**Redaktor: X.Hacızadə**

**REDAKSİYANIN ÜNVANI:**
**AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.**
**Əlaqə telefonları: 560-22-63**

**Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.**

**Şəhadətnamə 3565**
**Sayı 3000**